Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2017-ci il 12 iyun tarixli 1717050000009300 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

# «Qeyri-rezidentin Azərbaycan Respublikasından əldə etdiyi gəlirindən artıq tutulmuş vergilərin geri qaytarılması haqqında Ərizənin» (DTA-05 Forması) doldurulması QAYDASI

DTA-05 Ərizə forması Azərbaycan Respublikası və xarici dövlət arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilədə (beynəlxalq müqavilədə) məhdud vergitutma və ya azadolma nəzərdə tutulduğu halda həmin xarici dövlətin rezidenti tərəfindən Azərbaycan Respublikasında artıq ödənilmiş və ya ondan ödəmə mənbəyində artıq tutulmuş vergilərin geri qaytarılması məqsədilə həmin qeyri-rezident tərəfindən doldurulur və Azərbaycan Respublikasında ona gəlir ödəyən şəxsin uçotda olduğu vergi orqanına təqdim edilir. Ərizə kağız daşıyıcısında doldurulduqda hər xanada bir simvoldan artıq olmamaqla göy və ya qara rəngli diyircəkli qələmlə aydın oxunaqlı şəkildə doldurulmalıdır.

1.1-ci bənddə ərizənin təqdim edildiyi vergi orqanının adı qeyd olunur. Məsələn:

| | | |
|---|---|---|
| 1.1 | Müraciət edilən vergi orqanının adı | V E R G İ L Ə R   N A Z İ R L İ Y İ   Y A N I N D A |
| | | M İ L L İ   G Ə L İ R L Ə R   D E P A R T A M E N T İ |

Şəxs Azərbaycan Respublikasında VÖEN-ə malikdirsə, həmin VÖEN 2.1-ci bənddə qeyd olunmalıdır. Şəxs fiziki şəxs olduqda 2.2-ci, 2.3-cü və 2.4-cü bəndlərdə müvafiq olaraq onun adı, soyadı və atasının adı şəxsiyyətini təsdiq edən sənəddə olduğu kimi qeyd edilir. Məsələn:

| | | |
|---|---|---|
| 2.1 | Azərbaycan Respublikasında VÖEN (varsa) | |
| 2.2 | Soyadı | P A R K E R |
| 2.3 | Adı | M I C H A E L |
| 2.4 | Atasının adı | S A N D L E R |

Müraciət edən qeyri-rezident hüquqi şəxs olduqda 2.5-ci bənd, həmçinin qeyri-rezident hüquqi şəxs Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsi ilə fəaliyyət göstərirsə, 2.1-ci bənddə həmin daimi nümayəndəliyin VÖEN-i qeyd edilir. Məsələn:

| | | |
|---|---|---|
| 2.1 | Azərbaycan Respublikasında VÖEN (varsa) | 1 2 3 4 5 6 7 8 9 |
| 2.5 | Tam adı | N E W   W A Y   E N T E R P R I S E S   L T D |

Şəxs Azərbaycan Respublikasında ünvana malikdirsə 2.6-2.8 bəndlər müvafiq olaraq aşağıdakı kimi qeyd edilir:

| Azərbaycan Respublikasında ünvanı | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2.6 | Poçt indeksi | A | Z | 1 | 0 | 0 | 0 | | | | | | | | |
| 2.7 | Şəhər (rayon) | B | A | K | I | | | | | | | | | | |
| 2.8 | Ünvan | L | A | N | D | A | U | | E | V | 1 | | M | 1 | |

Qeyri-rezidentin rezidentlik ünvanı aşağıdakı kimi doldurulur:

| Rezidentlik dövləti və ünvanı | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2.9 | Dövləti | İ | T | A | L | İ | Y | A | | | | | | | | | | | | |
| 2.10 | VÖEN | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 0 | | | | | | | | | |
| 2.11 | poçt indeksi | İ | T | 1 | 0 | 0 | 0 | | | | | | | | | | | | | |
| 2.12 | Şəhər (rayon) | M | İ | L | A | N | | | | | | | | | | | | | | |
| 2.13 | Ünvan | C | O | R | S | O | | G | A | R | İ | B | A | L | D | İ | | 1 | 0 | |

Qeyri-rezident şəxsin rezidentlik dövləti və vətəndaşlıq dövləti fərqlidirsə vətəndaşlıq dövləti aşağıdakı kimi doldurulur:

| Vətəndaşlıq dövləti və ünvanı | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2.14 | Dövləti | T | Ü | R | K | İ | Y | Ə | | | | | |
| 2.15 | VÖEN | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 0 | | |
| 2.16 | poçt indeksi | T | R | 1 | 0 | 0 | 0 | | | | | | |
| 2.17 | Şəhər (rayon) | A | N | K | A | R | A | | | | | | |
| 2.18 | Ünvan | A | T | A | T | Ü | R | K | | 1 | 0 | | |

Azərbaycan Respublikasında, yaxud rezidentlik və ya vətəndaşlıq dövlətlərinin hər hansı birində müraciət edən şəxsin daimi poçt ünvanı olmadıqda müvafiq bəndlər doldurulmur.

2.6-2.18-ci bəndlərdə birdən artıq ünvan qeyd olunmuşdursa, 3.1-ci bənddə poçt əlaqəsi üçün bu ünvanlardan hansının istifadə ediləcəyi müvafiq xanada X işarəsi qoyulmaqla seçilir və ya Digər xanasında X işarəsi qeyd olunaraq ünvan bəndi doldurulur. Məsələn:

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 3.1 | poçt əlaqəsi üçün ünvan (birini seçin və X işarə edin) | Azərbaycan | | Vətəndaşlıq | | Rezidentlik | | Digər | X |

| | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | A | Z | 1 | 0 | 0 | 0 | | B | A | K | I | | L | A | N | D | A | U | | E | V | 1 | 0 | | M | 1 |
| | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |

3.2-3.5-ci bəndlər müvafiq olaraq aşağıdakı kimi doldurulur:

| | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 3.2 | Telefon (1): | 9 | 9 | 4 | 1 | 2 | 4 | 0 | 3 | 8 | 3 | 0 | 0 | | | | | | | | | | | | | | |
| 3.3 | Telefon (2): | 9 | 9 | 4 | 1 | 2 | 4 | 0 | 3 | 8 | 3 | 0 | 0 | | | | | | | | | | | | | | |
| 3.4 | Faks | 9 | 9 | 4 | 1 | 2 | 4 | 0 | 3 | 8 | 3 | 0 | 0 | | | | | | | | | | | | | | |
| 3.5 | E-mail: | E | X | A | M | P | L | E | @ | E | X | A | M | P | L | E | . | C | O | M | | | | | | | |

Ərizə forması şəxsin səlahiyyətli nümayəndəsi tərəfindən təqdim edildikdə 4.1-4.8-ci bəndin məlumatları həmin səlahiyyətli şəxsin şəxsiyyətini təsdiq edən sənədin məlumatlarına əsasən aşağıdakı kimi qeyd olunur:

Müraciət edən şəxsin

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 4.1 | Soyadı | M | İ | R | Z | Ə | Y | E | V | |
| 4.2 | Adı | V | A | Q | İ | F | | | | |
| 4.3 | Atasının adı | S | A | H | İ | B | | | | |

Şəxsiyyəti təsdiq edən sənədin

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 4.4 | Seriya sı | A | Z | E | 4.5 Nömrəsi | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 0 |
| 4.6 | Sənədi vermiş orqanın adı | | | | | N | Ə | S | İ | M | İ | | R | P | İ |
| 4.7 | Sənədin verilmə tarixi | | | | | 0 | 1 | 0 | 1 | 2 | 0 | 1 | 0 | | |

4.8 Sənədə əsasən FIN: A B C D E F G

Qeyri-rezidentə Azərbaycan Respublikasında gəlir ödəyən şəxs fiziki şəxs olduqda 5.1-5.6-cı bəndlər aşağıdakı kimi doldurulur:

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 5.1 | Fiziki şəxs | X | 5.2 Hüquqi şəxs | | | | | | | | |
| 5.3 | VÖEN | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 2 |

Fiziki şəxs olduqda

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 5.4 | Soyadı | M | İ | R | Z | Ə | Y | E | V |
| 5.5 | Adı | V | A | Q | İ | F | | | |
| 5.6 | Atasının adı | S | A | H | İ | B | | | |

Qeyri-rezidentə Azərbaycan Respublikasında gəlir ödəyən şəxs hüquqi şəxs olduqda 5.2-5.3-cü və 5.7-ci bəndlər aşağıdakı kimi doldurulur:

| | | | |
|---|---|---|---|
| 5.1 | Fiziki şəxs | | 5.2 Hüquqi şəxs X |
| 5.3 | VÖEN | 1 2 3 4 5 6 7 8 9 1 | |
| Hüquqi şəxs olduqda | | | |
| 5.7 | Tam adı | A B C F İ R M A S I | |

6-cı bölmədə əldə edilmiş gəlir və tutulmuş vergi barədə məlumatlar əks olunur. Ərizə forması elektron qaydada təqdim edildikdə, 6.1-ci bənd doldurularkən gəlirin növü siyahıdan seçilir, kağız daşıyıcısında doldurulduqda isə müvafiq xanada əllə yazılır. Məsələn:

| | | |
|---|---|---|
| 6.1 | Gəlirin növü | D İ V İ D E N D |

6.2.1-ci yarımbənddə gəlirin ödənilməsinə əsas verən müqavilənin və ya hər hansı digər sənədin nömrəsi, 6.2.2-ci yarımbənddə isə tarixi qeyd edilir. Müqavilə işlərin görülməsi, xidmətlərin göstərilməsi ilə bağlı olduqda 6.3-cü bənddə həmin işlərin və ya xidmətlərin dövrü başlanğıc və son tarixləri göstərilməklə əks etdirilir. Dövrü ödənişlərin aparılması nəzərdə tutulduğu halda həmin ödənişlərin aparıldığı dövr ilk və son ödənişlərin tarixləri göstərilməklə əks etdirilir. Məsələn:

| | | | | | |
|---|---|---|---|---|---|
| 6.2 | Gəlirin ödənilməsinə əsas verən müqavilə (sənəd) | | | | |
| 6.2.1 | Nömrəsi | 1 2 3 | 6.2.2 Tarixi | 0 1 0 1 2 0 1 6 | |
| 6.3 | İşlərin görülməsi, xidmətlərin göstərilməsi dövrü | 0 1 0 1 2 0 1 6 | -dən | 3 1 1 2 2 0 1 6 | -dək |
| 6.4 | Ödənişlərin aparılacağı dövr | 0 1 0 1 2 0 1 6 | -dən | 3 1 0 1 2 0 1 7 | -dək |

6.5-ci bənddə gəlirin ödənildiyi valyutanın kodu, 6.6-cı bənddə həmin məbləğ valyuta ilə, 6.7-ci bənddə isə məbləği manatla qeyd edilir. Ödəniş valyutası AZN göstərildikdə və 6.6-cı bənd müvafiq olaraq doldurulduqda, 6.7-ci bənd doldurulmur. 6.8-ci bənddə gəlirdən Azərbaycan Respublikasının daxili qanunvericiliyinə əsasən tutulmalı verginin müvafiq olaraq dərəcəsi, 6.9-cu bənddə beynəlxalq müqavilənin müddəalarına əsasən həmin gəlirdən tutulmalı verginin dərəcəsi, 6.10-cu bənddə isə qaytarılmalı olan məbləğ əks olunur. Məsələn:

| | | | |
|---|---|---|---|
| 6.5 | Ödəniş valyutası | U S D | |
| 6.6 | Gəlirin ödəniş valyutası ilə məbləği | 1 0 0 0 | |
| 6.7 | Gəlirin AZN ilə məbləği | 1 7 0 0 | |
| 6.8 | Daxili qanunvericiliyə əsasən tutulmuş verginin dərəcəsi | 1 0 | % |
| 6.9 | Beynəlxalq müqaviləyə əsasən tutulmalı olan verginin dərəcəsi | 0 | % |
| 6.10 | Qaytarılmalı olan məbləğ | 1 7 0 | |

7.1-ci bənddə gəliri əldə edən qeyri-rezidentin rezident olduğu və Azərbaycan Respublikası ilə beynəlxalq müqaviləni bağlamış dövlətin adı və beynəlxalq müqavilənin azadolma, yaxud aşağı vergi dərəcəsinin nəzərdə tutulduğu müvafiq maddəsinin nömrəsi qeyd edilir. Məsələn:

7.1. Azərbaycan Respublikası və | Ç | İ | N | | | | | | | | | | | | | | | | | | |

arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilənin | 1 | 0 | maddəsi nəzərə

alınmaqla göstərilən məbləğin rekvizitləri aşağıda göstərilən bank hesabına qaytarılmasını XAHİŞ EDİRƏM.

7.2-7.7-ci bəndlərdə qeyri-rezident tərəfindən artıq ödənilmiş və ya ondan ödəmə mənbəyində artıq tutulmuş və qeyri-rezidentə qaytarılmalı olan vergi məbləğinin köçürülməli olduğu bank hesabının rekvizitləri barədə məlumatlar qeyd olunur. Belə ki, 7.2-ci bənddə qaytarılmalı olan vergi məbləğinin köçürülməli olduğu bankın yerləşdiyi ölkənin adı, 7.3-cü və 7.4-cü bəndlərdə müvafiq olaraq bankın adı və ünvanı, 7.5-ci bənddə qaytarılmalı olan məbləği alacaq şəxs aşağıdakı 7.6-7.7-ci bəndlərdə isə bankın SWIFT və bank hesabının IBAN şifrələri, nümunəyə uyğun qeyd olunur:

| | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 7.2 | Ölkənin adı | R | U | S | İ | Y | A | | | | | | | | | | | | | | | | | | |
| 7.3 | Bankın adı | S | B | E | R | B | A | N | K | | R | O | S | İ | İ | | | | | | | | | | |
| 7.4 | Bankın ünvanı | 1 | 1 | 7 | 9 | 9 | 7 | | V | A | V | İ | L | O | V | | K | Ü | Ç | | E | V | 1 | 9 | |
| | | M | O | S | K | V | A | | | | | | | | | | | | | | | | | | |
| 7.5 | Benefisiar | P | A | R | K | E | R | | M | İ | C | H | A | E | L | | | | | | | | | | |
| 7.6 | SWIFT | S | A | B | R | R | U | M | M | | | | | | | | | | | | | | | | |
| 7.7 | IBAN | 3 | 0 | 3 | 0 | 1 | 8 | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 6 | 0 | 0 | 0 | | | | | | | |

“Əlavə olunan sənədlər” bəndində ərizəyə əlavə edilən sənədlərin vərəqlərinin sayı göstərilir və ərizə kağız daşıyıcısında doldurularaq, təqdim edildiyi halda ərizənin doldurulma tarixi müvafiq hissədə əks etdirilir, ərizə imzalanır və müraciət edən şəxsin möhürü olduğu halda vurulur. Məsələn:

vərəqlərin sayı

Əlavə olunan sənədlər | 0 | 6 | 3 |

Ərizənin doldurulma tarixi | 0 | 1 | 0 | 8 | 2 | 0 | 1 | 6 | M.Y. İmza ____________

DTA-05 Ərizə formasına əlavə edilməli olan təsdiqedici sənədlər gəlirin növündən asılı

- Göstərilmiş xidmətlərdən gəlir: beynəlxalq müqavilə bağlanmış xarici dövlətdə rezidentliyi təsdiq edən sənəd, müqavilə və ona əlavə sənədlər, işlərin görülməsi, xidmətlərin göstərilməsinin müddətini təsdiq edən sənədlər, habelə məsələyə aidiyyəti olan bütün digər sənədlər;
- Dividend: beynəlxalq müqavilə bağlanmış xarici dövlətdə rezidentliyi təsdiq edən sənəd, iştirak payını təsdiq edən sənəd, dividendlərin bölüşdürülməsi barədə qərar, habelə məsələyə aidiyyəti olan bütün digər sənədlər;
- Faiz: beynəlxalq müqavilə bağlanmış xarici dövlətdə rezidentliyi təsdiq edən sənəd, borc müqaviləsi, güzəştli vergitutmanın tətbiq edilməsi üçün hər hansı dövlət zəmanəti və ya resipientin dövlət və ya hökumət institutu olması tələb edilirsə, bu halları təsdiq edən sənədlər, habelə məsələyə aidiyyəti olan bütün digər sənədlər;
- Royalti: beynəlxalq müqavilə bağlanmış xarici dövlətdə rezidentliyi təsdiq edən sənəd, royalti obyekti olan hüquq və ya əmlakdan istifadə hüququnun verilməsi haqqında müqavilə, müqavilənin obyekti olan hüquq və ya əmlaka mülkiyyət hüququnu təsdiq edən sənəd, habelə məsələyə aidiyyəti olan bütün digər sənədlər;
- Beynəlxalq daşımalardan gəlir: daşıyıcının beynəlxalq müqavilə bağlanmış xarici dövlətdə rezidentliyini təsdiq edən sənəd, nəqliyyat vasitəsi özünün olmadığı halda, onun icarəyə götürülməsini, marşrutu, mövcud olduğu halda yüklərin daşınmasını təsdiq edən yol sənədləri (CMR, uçuş icazəsi, liman sənədləri və s.), habelə məsələyə aidiyyəti olan bütün digər sənədlər;
- Digər gəlirlər: beynəlxalq müqavilə bağlanmış xarici dövlətdə rezidentliyi təsdiq edən sənəd, gəlirin əldə edilməsi hüququnu təsdiq edən sənəd, habelə məsələyə aidiyyəti olan bütün digər sənədlər.

Rezidentliyi təsdiq edən sənəd və xarici dövlətin səlahiyyətli orqanları tərəfindən verilən bütün sənədlər həmin səlahiyyətli orqanların səlahiyyətli şəxslərinin imzaları və möhürlə təsdiq edilərək, “Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin inzibatçılığı Qaydalarının” 8.9-8.12-ci bəndlərinin müddəalarına uyğun qaydada rəsmiləşdirilmiş sənədlər olmalıdır. Təsdiqedici sənədlər xarici dildə olduğu halda Qaydaların 8.13-cü bəndinə müvafiq olaraq, onların Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi də təqdim edilməlidir. Ərizə müraciət edən şəxsin özü deyil, onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanaraq, təqdim edildiyi halda, həmin səlahiyyətli nümayəndənin müraciət edən şəxsi təmsil etmək səlahiyyətlərinə malik olması barədə etibarnamənin Azərbaycan Respublikasında notariat qaydasında təsdiq edilmiş surəti də ərizəyə əlavə edilməlidir.